# Attestasiyalar keçirilib

2018-2019-cu tədris ilində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinə qəbul edilmiş, modul tipli təhsil



proqramları ilə tədrisi həyata keçirilən "aqroservis mütəxəssisi", "bitkiçilik mütəxəssisi", "heyvandarlıq mütəxəssisi" və "meyvə ustası" ixtisasları üzrə I yarımildə tədrisi tam başa çatmış sektor modulları üzrə aralıq attestasiyaların keçirilməsinə start verilmişdir.

Bu məqsədlə dekabr ayında təhsil mərkəzində attestasiya komissiyaları yaradılmışdır. Mərkəzdə hazırlanmış aralıq attestasiya materialları metodiki komissiyanın iclasında müzakirə olunaraq təsdiq edilmişdir. Həmçinin mərkəzdə imtahanların keçirilməsi üçün otaqlar müəyyənləşdirilmiş və tələb olunan şərait yaradılmışdır. İmtahanlar həm tədris otaqlarında, həm də laboratoriya və emalatxanada təşkil edilmişdir.

Qeyd etmək lazımdır ki, aralıq attestasiyalar əsasən üç istiqamət üzrə–kənd təsərrüfatı texnikasının quruluşu, bitkiçilik və heyvandarlıq istiqamətləri üzrə üstünlük təşkil etdiyinə görə, Qəbələ rayonundakı "Gilan Qəbələ Aqrotexservis" MMC, "Gilan Dairy Farms" MMC - əkinçilik və "Gilan Dairy Farms" MMC ətlik - südçülük kompleksinin mütəxəssisləri ayrı - ayrı modullar üzrə attestasiya komissiyalarının sədrləri təyin edilmişlər.

Adları qeyd edilən müəssisələr Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ilə tələbələrin istehsalat təliminin və təcrübəsinin təşkilində və dual təlim pilotlarının yaradılmasında yaxından əməkdaşlıq edirlər.

İmtahanların gedişini Almaniya Əməkdaşlıq Cəmiyyətinin (GİZ) layihəsi çərçivəsində kənd təsərrüfatı sahəsində "Qəbələ, İsmayıllı və Qax rayonlarında kənd təsərrüfatı və turizm sahələrində dual peşə təhsili və təlimi pilotlarının yaradılması" üzrə layihənin əməkdaşları izləmişlər.

**"Qəbələ"**

# Ötən ilin uğurları

Nohurqışlaq kənd tam orta məktəbində keçirilən pedaqoji şura yığıncağında 2018-ci ildə məktəbin fəaliyyəti və qarşıda duran vəzifələr müzakirə olunmuşdur.

İclasda bildirilmişdir ki, 2018-ci il Nohurqışlaq kənd tam orta məktəbinin pedaqoji kollektivi üçün uğurlu illərdən biri kimi yadda qalacaqdır. Belə ki, ötən ildə məktəbi bitirmiş 38 məzundan 24 nəfəri ali məktəblərə daxil olmuşdur. Onların 3 nəfəri 600 baldan, 2 nəfəri isə 500 baldan yuxarı nəticə əldə etmişdir.

Məktəb keçən il Oğuz rayonunun Yaqublu kənd tam orta məktəbi ilə qarşılıqlı təcrübə mübadiləsi aparmışdır.

2018-ci ildə Nohurqışlaq kənd tam orta məktəbinin X sinif şagirdi Məleykə Abuşova coğrafiya fənni üzrə respublika yarışmasında üçüncü yeri tutmuş, bürünc medal qazanmışdır. Məleykə eyni zamanda rayonumuzda ədəbiyyat fənnindən də keçirilən yarışmada birinci yeri tutmuş, respublika yarışmasında Təhsil Nazirliyinin diplomuna layiq görülmüşdür.

Məktəbin ingilis dili müəllimi Fazil Atakişiyev «Maarif əlaçısı» döş nişanına layiq görülmüşdür.

2018-ci ildə məktəbin şagirdləri Qax rayonunda keçirilən «Xəmsə» intellektual oyununda uğurla iştirak etmiş, respublika yarışına vəsiqə qazanmışlar.

**Yaqub TAHİROV,**
**məktəbin direktoru.**

# Möcüzə insanlar

*Bütün dünyada şüurlara təsir edən və onları istədiyi kimi idarə edə bilən bir insan kimi məşhur olan yəhudi əsilli Volf Messinq 1899-cu ildə Polşada dünyaya göz açıb. Kiçik Volf hələ uşaqlıqdan qeyri-adi yaddaşı, müşahidə qabiliyyəti ilə seçilirmiş.*

*O, qeyri-adi qabiliyyətini ilk dəfə Berlinə getmək üçün mindiyi qatarda kəşf edir. 13 yaşlı oğlan bilet əvəzinə bələdçiyə adi kağız parçası uzadır və sadəcə, çox istəyir ki, bu kağız bilet kimi qəbul edilsin. Belə də olur. Volf başa düşür ki, hələ sirrini bilmədiyi qeyri-adi qabiliyyətə malikdir. Sonralar Volfun səhnə həyatı başlayır.*

*İkinci dünya müharibəsində Volf yəhudi olduğu üçün ölüm düşərgəsinə salınır. Burada o, qeyri-adi qabiliyyətindən istifadə edərək alman gözətçilərini kameraya salıb özü azadlığa çıxır.*

*Moskvaya qaçıb gələn Volfun sorağı Staline çatır. Stalin onu yoxlamaq üçün iki mühafizəçi ilə banka göndərir və heç bir sənədsiz bankdan pul götürməsini istəyir. Volf adi kağız parçasını bank işçisinə təqdim etməklə yüz min rubl pul götürür. Böyük gipnozçu ciddi mühafizəyə baxmayaraq Stalinin iş kabinetinə icazəsiz daxil olur və onunla salamlaşır.*

*Stalin müharibə dövründə və müharibədən sonra Volfdan rəqiblərinin, hətta silahdaşlarının da fikirlərini öncədən öyrənmək üçün istifadə edib.*

*Volf Messinq 1974-cü ildə dünyasını dəyişib.*

# Maraqlı kitab

Qəzetimizin ştatdankənar müxbir postunun rəhbərit, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü Emin Baratoğlunun «Uludaşın daş yaddaşı» adlı növbəti kitabı çapdan çıxmışdır. Maraqla oxunan şeirlər, publisistik yazılar müəllifi kimi tanınan Emin müəllimin bu kitabında rayonumuzun qədim kəndlərindən olan Uludaş ziyalıları, kəndin həyatında fəal iştirak etmiş şəxslər haqqında oxuculara geniş məlumat verilir.

Kitabı vərəqlədikcə insanların bir-birindən fərqli və maraqlı həyat hekayələri gözlərimiz önündə canlanır.

Kitabdan məlum olur ki, Uludaş kəndinin yetirmələrinin bir çoxu nəinki kəndin, rayonun, hətta ölkəmizin ictimai həyatında fəal mövqe tuturlar. Uludaşlılar arasında vətənimizin sərhədlərindən kənarda da–Rusiya Federasiyasında, Ukrayna




Respublikasında və sair yerlərdə öz işi, əməli ilə müsbət mənada tanınmış şəxslər yetişmişdir.

Uludaş kəndində doğulub böyümüş, kənd məktəbində təlim-tərbiyə almış oğullar torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda gedən müqəddəs savaşda igidlik göstərmiş, onlardan 6 nəfəri şəhidlik zirvəsinə yüksəlmişdir.

Uludaş şəhidlərinin və qazilərinin qəhrəmanlıq yolu ilə oxucular Emin Baratoğlunun «Uludaşın daş yaddaşı» kitabı vasitəsilə yaxından tanış ola bilərlər.

Umumiyyətlə, Emin müəllimin qeyd etdiyimiz kitabı vasitəsilə Uludaş kəndinin təxminən 50 illik bir tarixi ilə yaxından tanış olmaq mumkundur.

**«Qəbələ»**

# Kitabxanada görüş

Son illər Qəbələ yazarlarının ədəbi fəaliyyəti xeyli dərəcədə genişlənmişdir. Belə



ki, onların bədii yazıları şəxsi kitab şəklində, almanaxlarda, «Qəbələ» qəzetində, həmçinin respublikada dərc olunan digər qəzet və jurnallarda özünə yer tutmuşdur.

Bu günlərdə rayon mərkəzi kitabxanasında oxucularla yazarların görüşü keçirilmişdir. Toplantını kitabxananın işçisi Ülkər Xancanova açaraq kitabxana ilə oxucuların və yazarların əlaqəsindən danışmışdır.

Sonra söz «Əməkdar müəllim», «Ziyalı» jurnalının, «Xocalının səsi» qəzetinin bölgə müxbiri Fərman Əzizliyə verilmişdir. O, Qəbələ yazarlarının yaradıcılıq fəaliyyətindən söhbət açmışdır. Yazarlardan Cəlil Komradlı, Mirhəsən Ağayev, Hüseynağa Qasımov, Əhməd Məmmədli, Rəciyyə Lazalı, Fəxrəddin Babəbəyli, Mirzəbala Yediyarov, Gülxar Vəfalı, Mərziyyə Əfəndiyeva,gənc yazar Məleykə Şirinzadə, qadın yazarlar cəmiyyətinin sədri Rəna Mahmudova söz alaraq öz yeni şeirlərini oxumuşlar.

Sonra fəal oxuculardan Şahin Abdullayev, 87 yaşlı Süleyman Mehdiyev, Telman Məhəmmədoğlu çıxış edərək toplantıdan razılıqlarını bildirmişlər. Fəal oxuculardan Şahin Abdullayevə, Fərman Əzizliyə və Süleyman Mehdiyevə təşəkkürnamələp təqdim olunmuşdupr.

Sonda mərkəzləşmiş kitabxana ststeminin direktor əvəzi Rəna İbrahimova yazarlara və oxuculara səmimi təşəkkürlərini bildirmişdir.

Tədbir iştirakçılarda yüksək əhvalı-ruhiyyə oyatmışdır.

**Emin BARATOĞLU,**
**AYB-nin AJB-nin üzvü, «Qızıl qələm» media mükafatı laureatı, «Qəbələ»-nin müxbir postunun rəhbəri.**

# Çinar ağacı: əfsanəyə çevrilmiş həqiqət

***Azərbaycanın florası və faunası çox zəngindir. Ulu Tanrı Azərbaycana bütün təbii gözəllikləri–müxtəlif ətirli gülü, çiçəyi, meyvələri və min bir dərdin dərmanı olan faydalı bitkiləri bəxş etmişdir.***

***Ölkəmizdə təbiətə yaraşıq verən əzəmətli, uca ağaclarımız da var. Bunlardan biri çinar ağacıdır.***

Çinar ağacı uzunömürlüyü, gözəlliyi ilə təbiətimizə xüsusi yaraşıq verir. Uzunömürlü olmasının əsas səbəbi odur ki, bu ağac öz qabığını tez-tez dəyişir və buna görə də qabıq altında qurdlar yaşaya bilmir. El arasında belə bir deyim var ki, çinar ağacında heç bir quş yuva qurmaz. Dəqiqliklə bunun səbəbini aydınlaşdıra bilməsək də yəqin ki, bunun bir sirri vardır. Çinar ağacına demək olar ki, Azərbaycanın bütün bölgələrində rast gəlmək olar. Qəbələdə də xeyli sayda çinar var. Yolboyu sıralanan, rayonumuzun gözəlliyinə yeni bir gözəllik qatan çinarlar əzəmətli budaqları ilə yay mövsümündə insanlara sərinlik və kölgə verir. Amma mən istərdim ki, bu gün əfsanəyə çevrilmiş əzəmətli bir çinar ağacından söhbət açım.

Şəhərimizin mərkəzindəki Cümə məscidinin qarşısında



vaxtilə yaşlı bir çinar ağacı vardı. Bu çinara baxan hər kəsi onun gövdəsinə vurulan sıralanmış dəmir qarmaqlar düşündürürdü.

Həqiqətdə isə Böyük Vətən Müharibəsi illərində bu çinar şəhərdə ən hündür ağac olduğuna görə hərbiçilər ona qarmaq vuraraq yuxarıda quraşdırılmış müşahidə məntəqəsinə qalxmış, yaşayış məntəsi üçün baş verə biləcək hər hansı təhlükəni nəzarətdə saxlamışlar.

25-30 metr hündürlüyü, 2 metr diametri olan bu ağac demək olar ki, ərazidə əsas müşahidə məntəqəsi idi.

Lakin 1992-ci ilin yanvar ayında güclü yağan qar ağacı sındırdı. Həmin illərdə muzeyin direktoru olan Xalis Məmmədov bu ağacdan müəyyən bir hissəni nümunə kimi muzeyə gətirdi. Elə o vaxt vurulmuş qarmaq da ağacın gövdəsindədir. Həmin illərin yadigarı olan bu nümunə muzeyimizə daxil olan gündən ekspozisiyada qorunub saxlanılır. Kənardan baxanda adi görünən bu ağac parçası indi tarixin böyük səhifəsini özündə yaşadır.

**İlhamə SEYİDOVA,**
**muzeyinin kiçik elmi işçisi.**